ISSN:2148-2292

Akademik Tarih ve Düşünce Dergisi, 7 (1) İlkbahar 2020 ss 634-649

Academic Journal of History and Idea, 7 (1) Spring 2020 pp 634-649

Araştırma Makalesi
Original Article

# Cənubi Qafqaz Dövlətçilik sistemində Azərbaycan siyasi xadimlərinin fəaliyyəti (1918-ci il aprel- 1918-may)

**Rahim Həsənov***

**ORCID: 0000-0003-4621-1798**

## Xülasə

Rusiya imperiyasında 1917-ci il fevral inqilabından sonra dünya siyasi arenasında yetərincə dəyişikliklər baş verdi. Xalqlar həbsxanası adlanan bir dövlətdə monarxiyanın devrilməsi, demokratik ortamın yaranmasına gətirib çıxardı. Ölkənin hər yerində milli-siyasi hərəkatlar başlasa da, Cənubi Qafqazda olan siyasi durum imperiyanın başqa bölgələrindən köklü şəkildə fərqlənirdi. Belə ki, diyarın polietnik vəziyyəti burada mərkəzləşmə siyasəti aparmağa maneçilik törədirdi. Həm də siyasi fikir ayrılıqları da bölgənin qızğın siyasi zona olmasına gətirib çıxarmışdı. 1918-ci ilin fevral ayında Cənubi Qafqazda fevral inqilabından sonra formalaşmış Zaqafqaziya Seymi  bir növ dövlətçilik xarakteri daşıyırdı. Bu qurumda Qafqazın ən böyük xalqı olan azərbaycanlıların iştirakı, qafqazın gələcək statusunun müəyyənləşdrlməsində əhəmiyyətli rol oynamışdı. Məqalədə Zaqafaziya Seymində Azərbaycan siyasi elitasının oynadığı rol və gələcək milli dövlətin yaradılması uğrunda mübarizədən bəhs edilir.

**Açar sözlər:** Qafqaz hökuməti, sentralist, desentralist, müsavat, sosialist

**Gönderme Tarihi:03/03/2020** **Kabul Tarihi:27/03/2020**

* *Azərbaycan Milli Elmlər Akademiyası Şəki Regional Elmi Mərkəzi şöbə müdiri*, E-Mail: raqimhist@mail.ru

© ATDD Tüm Hakları Saklıdır

# Activity of Azerbaijani political figures in the system of statehood in the South Caucasus (April 1918 - May 1918)

**Rahim Hasanov**

**ORCID: 0000-0003-4621-1798**

## Abstaract

After the February 1917 revolution in the Russian Empire, sufficiently changes had been happening in the world political arena. The overthrow of the monarchy in a state called Nationals Prison had led to the creation of a democratic atmosphere. Although national and political movements took place all over the country, the political situation in the South Caucasus had been radically differing from other parts of the empire. Thus, the polyethnic situation of the region was preventing the policy of centralization here. Also, political difference of opinions had been lead to the region becoming an intensive political zone. The Transcaucasian Seim, which was formed after the February Revolution in the South Caucasus in February 1918 was characterizing some kind of statehood. The participation of Azerbaijanis, the largest Caucasian people in this body, had played an important role in determining the future status of the Caucasus. The article deals the role played from the Azerbaijani political elites in the Transcaucasian Seimas and the struggle to create a future nation-state.

**Keywords:** Caucasian government, centralist, descentralist, musavat, socialist

**Received Date: 03/03/2020** **Accepted Date: 27/03/2020**

## Активность азербайджанских политических деятелей в системе государственности на Южном Кавказе (апрель 1918 г. - май 1918 г.)

### Резюме

После февральской революции 1917 года в Российский Империи, на политической арене мира произошли достаточные изменения. Переворот монархии в государстве, так называемой тюрьмой народов, привело к образовании демократической среды. Несмотря на начало народно-политических движений, политическое состояние на Южном Кавказе коренным образом отличалось от о состояния других регионов империи. Так-то полиэтническое состояние края мешало проведению здесь политики централизации. А также разногласия политических мышлений привели к превращении региона в напряженную зону. После февральской революции с февраля 1918 года Формированный Закавказский Сейм на Южном Кавказе так сказать носил государственный характер. Участие азербайджанцев, являющим главным народом Кавказа, в этом обществе играет значительную роль в определении будущего статуса Кавказа. В статье рассказывается о роли Азербайджанской политической элиты на Кавказском Сейме и борьбе за создание будущего национального государства.

**Ключевые слова**:Кавказское правительство, централист, децентралист, мусават, социалист

**Получено: 03/03/2020** **Принято: 27/03/2020**

**Giriş**

Çarizmin süqutu demokratik azadlıqlarla bərabər anarxiya və siyasi gedişlərdə eklektizm də gətirdi. Belə ki, uzun müddət çar istibdadına qarşı siyasi ideyaları ortaq olan partiya və təşkilatlarda ayrılma prosseləri nəzərəçarpacaq dərəcədə artmış oldu. Cənubi Qafqazda mövcud olan milli və beynəlmiləçi siyasi təşkilatlarda bu əksqütblülük daha qabarıq şəkildə özünü biruzə verdi. Belə ki, Qafqazın əsas etnik özəyi olan türk-müsəlman əhaliyə qarşı beynəlmiləlçi pərdəsi altında xristian həmrəyliyini qorumağa çalışan, eser, menşevik, daşnakların siyasi birliyi özünü göstərmiş oldu. İstər 1917-ci ilin mart ayında formalaşan Xüsusi Zaqafqaziya Komitəsi istərsə də həmin ilin noyabr ayından formalaşan Zaqafqaziya Komissarlığının fəaliyyəti dövrlərində müsəlman-türk amilinə qarşı mübarizə aktiv səciyyə daşıyırdı.

Göstərilən dövrdə Azərbaycan milli hərəkatında muxtariyyat uğrunda mübarizə aparan siyasi qanadı Müsavat partiyası və onun ətafında birləşən müstəqil demokratik qrup təşkil edirdi. Beynəlmiləlçi ideyalarla silahlanmış müsəlman sosialist bloku , Hümmət təşkilatı və islam birliyi uğrunda mübarizə aparan İttihad partiyası isə daha çox sentralist mövqe sərgiləyirdilər. Buna görə də desentralist istiqamət götürmüş Müsavat partiyası müsəlman fraksiyası daxilində olan sentralistlər və qeyri müsəlman partiyalara qarşı mübarizə şəraitində fəaliyyət göstərirdilər.

1918-ci ilin fevalında yaradılan Zaqafqaziya seymi mərkəzdən ayrılma yolunda desentralistlər üçün daha bir addım idi. Seymin fəaliyyəti dövründə qeyri müsəlman siyasi təşkilatların müsavatçılara qarşı təyziqləri daha da artmış oldu. Belə ki, həmin dövrdə Cənubi Qafqaz uğrunda mübarizədə yetərincə təsirə malik olan Osmanlı dövləti müsəlman-türk amilinin ərazidə əsas gücə çevirəcəyindən xəbər verirdi. Əsasən də Brest Litovsk sülhü nəticəsində Qars, Ərdahan və Batum ərazilərinin Osmanlı dövlətinə güzəştə gedilməsi, Zaqafqaziya seymində erməni və gürcü fraksiyasın kəskin müqavimətinə səbəb oldu. 1918-ci ilin 14 mart tarixindən başlanan Trabzon danışıqlarında Osmanlı tərəfinin qəti mövqedə dayanması və sülh müqaviləsinin şərtlərinə əməl olunmasını tələb etməsi danşıqların nəticəsiz qalmasına gətirib çıxardı. Danışıqların yarımçıq qalması, nəticədə seymdəki Azərbaycan fraksiyasına qarşı təyziqləri artırmış oldu. Osmanlı dövlətinə qarşı

müharibə elan etməyə qərar verən daşnak və menşeviklər, fövqəladə üçlük yaradaraq, azərbaycanlı siyasi xadimləri bura daxil etmədilər.

**Müstəqil Cənubi Qafqaz dövlətinin elan olunması**

1918-ci ilin mart ayının sonlarından etibarən Zaqafqaziya Seyminin həm daxili, həm də xarici siyasətində böhran son həddə çatmışdı. Seymdaxili fraksiyalar arasındakı ziddiyyətlər artmaqda davam edirdi. Seymin iclaslarına fasilə verilməsi, fövqəladə üçlüyün yaradılması və bu komissiyaya müsəlmanların buraxılmaması, Müsavat və bitərəflər qrupunun Osmanlı meyilli siyasət yeritməyini qətiləşdirmişdi.

N.Yusifbəyli qeyd edirdi ki, Seym üzvlərinə təyziqi artırmaq lazımdır ki, Zaqafqaziyanın müstəqilliyi elan edilsin və nəticədə Bakı Soveti ilə mübarizə daha da sürətlənər. Lakin Seymdəki üstünlüyə malik olan menşeviklər, əsas diqqəti Osmanlı dövləti ilə münasibətləri nizamlamağa vermişdilər. X.Xasməmmədov doğru olaraq vurğulayırdı ki, Seym höküməti mövcud deyil, yalnız üçlük tərəfindən rəhbərlik olunan diktatura var”.[1]

1918-ci il aprel ayının ilk ongünlüyündə Zaqafqaziya Seymində vəziyyət olduqca kəskinləşdi. Osmanlı təyziqləri artdıqca qeyri-müsəlman partiyalar, əsasən də daşnaklar siyasi debatlarda öz emosiyalarını saxlaya bilmirdilər. Partiya üzvü Artrunyan qeyd edirdi ki, “Osmanlı Qafqazın icərilərinə doğru irəliləyəcək və bilirik ki, içəridə onu dəstəkləyən var”. O, kəskin surətdə Osmanlı təkilflərini rədd olunmasını qeyd edərək, erməni xalqının əldə silah öləcəyini vurğulayırdı.[2] Bundan başqa sosialist-revalyutsionerlər, gürcü milli demokratları müsətqillik məsələsinə qəti etiraz edirdilər.

1918-ci ilin aprelin ortalarından etibarən müsəlman fraksiyasında Müsavat və bitərəflərin üstünlüyü və İttihadçıların siyasi ideyalarında müəyyən dərəcədə Osmanlı (islam birliyi . R.H) orientasiyasının olması Zaqafqaziyanın müstəqilliyinin elan edilməsi təkilifi ətrafında təyziqləri artırırdı. Doğrudur, ittahdçıların ilhaqçı siyasəti müsavatçılarla əks cəbhəni sərgiləyirdi. Lakin həmin dövrdə Zaqafqaziyanın müstəqilliyi məsələsində bu təşkilatın müsavatçılara dəstəyindən istifadə edilməsi olduqca vacib idi.

Mövcud durum və əsasən də Azərbaycan siyasi xadimlərinin təkidləri nəticəsində Seymdəki partiyaların əksəriyyəti Cənubi Qafqazın müstəqilliyinin qaçılmaz olduğunu

---

[1] Djamil Qasanlı, *Russkaya Revolyutsiya i Azerbaydjan: trudnıy put k nezavisimost, 1917-1920*, M.: Flinta, 2011, 672 .

[2] Zakavkazskiy Seym, Stenoqraficeskiy otcet. Ssesiya pervaya, Tifis 1918, 648 , 1918, 31marta 8 aprelya.

anladılar. 1918-ci il aprel ayının ikinci yarısında Seymin iclaslarında Müsavat və bitərəflər qrupundan olan siyasi xadimlər müstəqillik məsələsini daha təkidlə tələb etdirdilər. Aprelin 22-də ciddi diskusiyalardan sonra Zaqafqaziya Demokratik Federativ Respublikasının yaradıldığı elan edildi. 26 apreldə Çxenkelinin başçılığı ilə yeni hökümət təşkil edildi. Baş nazir və Xarici işlər naziri A. Çxenkeli, Daxili işlər naziri N.Ramişvili, Maliyyə naziri A.Xatisov, Yollar və məlumat naziri X.Məlikaslanov, Ədliyyə naziri F.X.Xoyski, Hərbi nazir Q.Qeorqadze, Kənd təsərrüfatı naziri N.Xomerki, Maarif naziri N.Yusifbəyli, Sənaye və ticarət naziri M.Hacınski, Tədarük naziri A.Saakyan, Dövlət naziri P.Kaçaznuni, Əmək naziri A.Erzikyan, Dövlət nəzarətçisi isə İ Heydərov təyin olunmuşdular.[3] Hökümət kabinetinin tərkibinə diqqət yetirdikdə güc nazirlikləri postları gürcülərin əlində idi. Yaradılmış qurumda Seymin konstitusiya layihəsi hazırlandığı zaman komissiya üzvlərinin bütövlüklə gürcülərdən olması onların siyasi üstünlüyünü göstərirdi.[4] Yeni yaranan dövləti Osmanlı dövləti heç bir tərəddüdsüz tanıdı.[5] Federasiyadakı siyasi partiyalarının əksəriyyətinin proqramlarında milli məsələnin qabardılması vahid siyasi xəttin yeridilməsini mümkünsüz edirdi. Buna görə də beynəlmiləlçilik tipli siyasi xəttlər utopiya xarakter daşıyırdı. Desentralizasiya siyasi xəttini yürüdən Azərbaycan milli liderlərinin həmin utopiyaya uymamaları Azərbaycan siyasi hərəkatını müstəqillik istiqamətində irəliləməsini sürətləndirirdi. Siyasi liderlərin Seymin müstəqilliyindən sonra ilkin istəkləri gürcü və ermənilərlə konfederasiya, Dağıstanla isə federasiya şəklində birləşmək idi.[6]

**Cənubi Qafqaz dövlətçiliyində fraksiyalararası mübarizə**

Zaqafqaziya federasiyasında Azərbaycan siyasi xadilmərinin əsas vəzifəsi Bakı və ümumiyyətlə Azərbaycanın bolşevik-daşnak birləşmələrindən azad edilməsi idi. Lakin Cənubi Qafqazın müstəqilliyi elan edildikdən sonra da əsas üstünlüyə malik olan menşeviklər bu məsələyə loyal münasibət sərgiləyirdilər. Daşnakstyunun mövqeyi isə tam aydın surətdə özünü göstərirdi. Seymin müstəqillik məsələsində də bu partiyanın qeyri-müəyyən mövqedə dayanması, yalnız təklənməmək üçün loyal münasibəti, erməni siyasi liderləri anti-türk birlik yaratmaq üçün rus imperializminin yeni forması olan bolşeviklərə

---

3 Zakavkazskiy Seym, Stenoqraficeskiy otcet, Ssesiya pervaya, Tifis 1918 -648, 13 (25) aprelya.
4 Kaçaznuni Ovannes, *Daşnakstyun bolşe neçeqo delat,* Baku : Elm, 1990, 110, 152.
5 21-ci yüzyılda Eğitim ve Toplum. c. 2, 5, Ankara: yaz, 2013, 175 .
6 Zaqafqaziya Seyminin Müsəlman Fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokolları, 1918-ci il/ Müqəddimənin müəllifi və məs. Red, Paşayev A. Ə.-Bakı:Adiloğlu, 2006, 216, 20.

üstünlük verdiyini göstərirdi. Əslində mart hadisələri zamanı daşnakların bütün gizli kartları aşkara çıxmışdı. Bu təşkilat əsaslı surətdə bolşeviklərə yardım etməklə müsəlman əhalinin məhv edilməsində əlindən gələni əsirgəməmişdi. Hətta daşnak lidelərindən Kaçaznunu qeyd edirdi: “Bakının erməni əhalisi nöqteyi nəzərindən bolşevik diktaturası, Müsavat diktaturasından daha münasib idi”.[7] Daşnakların konkret olaraq Osmanlı dövlətini düşmən görməsi və vahid bölünməz Rusiya ideyasını dəstəkləməsi təbii idi. Çünki car Rusiyası kimi Sovet Rusiyası da ermənilərə böyük vədlər verirdi. Buna görə də daşnaklar Qafqazın rus imperializmindən ayrılmasına razı deyildilər. Hətta M.Ə.Rəsulzadə Seymin iclasında müstəqilliyin uğur qazandıracağını söylədiyi zaman bütün skamyalardan alqışlar eşidildiyi halda daşnaklar buna əks-reakisya verdilər.[8] Doğrudur, eserlər və kadetlər də müstəqillik məsələsində öz nazarılıqlarını bildirirdilər. Semyonov çıxışında Zaqafqaziyanın müstəqilliyinə uğur arzulayaraq, öz narazılığını bildirmişdi. Eserlər adından çıxış edən Tarxanov müstəqilliyi dəstkəlmədiklərini və hökümətə heç bir dəstək verməyəcəklərini dilə gətirmişdi.[9] Lakin daşnakların reaksiyası buna bənzəmirdi. Həm də nə eserlər, nə də kadetlər Azərbaycan milli hərəkatına daşnaklar qədər zərər verə biləcək qüvvədə deyildilər.

Osmanlı qüvvələrinin Qafqazda irəliləməsi bolşevliklərlə erməniləri daha da yaxınlaşdırırdı. Həm də S.Şaumyanın yeritdiyi siyasətə diqqət yetirdikdə bu heç də sinfi mübarizə siyasəti deyil, milli etnik təmizləmə siyasəti idi. M.Ə.Rəsulzadə yazırdı: “Türkiyə Ermənistanı özünü müəyyənləşmə haqqında dekret alır, ermənilər “Daşnaksütyun” partiyasının müdafiə etdiyi arzularına yaxınlaşırlar, Qafqaz türk federalistlərini isə Bakı bolşevikləri xarabalıqlarla qorxudurdular”.[10] Bakı hadisələrini araşdırmaq üçün göndərilən nümayəndə heytinin üzvü Tiqranyanın 3 may tarixində Tiflisə qayıtması və Bakı Sovetinə qarşı hərbi əməliyyatların dayandırlması barədə tələb irəli sürməsi Seymədki erməni liderlərlə bolşeviklərin əməkdaşlığını bir daha sübut edir.[11]

Türkiyə ilə qısamüddətli hərbi əməliyyatlardan sonra Zaqafqaziya hökümətində daxili böhranın dərinləşməsi sülh danışıqarının yenidən başlanmasını qaçılmaz etdi. Cəbhədəki məğlubiyyətlərdən sonra menşeviklər qəti addımlar atmaq qərarına gəldilər.

---

[7] Kaçaznuni, *Daşnakstyun bolşe neçeqo delat*, 110, 21.
[8] Zakavkazskiy Seym, Stenoqrafiçeskiy otçet, Sseya pervaya – Tiflis 1918, 648, 1918, 13 (25) aprelya.
[9] Zakavkazskiy Seym, Stenoqrafiçeskiy otçet, Sseya pervaya – Tiflis 1918, 648, 1918, 13(25) aprelya.
[10] Rəsulzadə Məmməd Əmin, *Azərbaycan Cümhuriyyəti*, Bakı: Elm, 1990, 113.
[11] Azərbaycan Respublikasının Dövlət Arxivi (ARDA); f. 894, 10, iş 144, v.10.

Türkiyə tərəfi də Transqafqazla sülh danışıqlarının davam etdirilməsi tərəfdarı idi. Çünki İttifaq dövlətlərin başında duran Almaniya özü də Cənubi Qafqaza marağını artırmışdı. Brest-Litovsk sazişi ilə Sovet Rusiyasını ilk dəfə de fakto tanıyan Almaniyanın bu dövlətlə sazişə girə biləcəyi təqdirdə Şərqi Zaqafqaziyanın Osmanlı təsiri dairəsinə daxil edilməsi mümkünsüz ola bilərdi. Bundan başqa alman diplomatlarının gürcü siyasi xadimləri ilə təmasa keçmələri də Osmanlı diplomatiyasını narahat etməyə bilməzidi. Osmanlı dövləti Qafqaz məsləsini 1918-ci ilin yazından qəti olaraq siyasi xəttinin ön hissəsinə gətirmişdi. Sovet dövrü tarixşünaslığında bu siyasət Qafqazda bufer dövlət yaratmaq cəhdləri kimi qiymətləndirilir.[12] Lakin bu ideya Osmanlı siyasətinin yalnız bir istiqaməti ola bilərdi. Çünki Qafqaz məsələsində dövlətin hakim partiyası olan ittihadçıların turançılıq ideyası və Ənvər paşanın bu ideyaya daha çox inanması, həm də Osmanlı dövlətinin Qafqaz müsəlmanlarına dindaş və soydaş kimi yanaşması, bu dar çərçivəli sovet tarixçiliyi düşüncəsini kölgədə qoymuş olur. Osmanlı qoşun komandanı Vehib paşa xüsusən vurğulamışdı ki, Bakının azad edilməsi və müsəlman əhalini xilas etmək üçün türk ordusunun köməyinə ehtiyac vardır.[13] 1918 ci il 26 may tarixində Osmanlı diplomatı Xəlil Menteşenin memarandumunda "Dövlət-Aliyeyi-Osmaniyyənin əhalisi ilə eyni irq və dinə mənsub bir əhalinin asayişinə dəxi əlaqəsi vardı"[14] sözlərini işlətməsi türk siyasi xəttində soydaşlıq prinsipinin qabarıq şəkildə olduğunu sübut edir. Azərbaycan siyasi xadimlərinin sülh danışıqlarının yenidən başlamasında rolu böyük idi. Trabzonda qalan M.H.Hacınski Türkiyə tərəfi ilə danışqlar apararaq, sülh danışıqlarının bərpa edilməsinə nail olmuşdu.[15] Azərbaycan siyasi xadimləri sülhə nail olmaqla Azərbaycanın bolşevik dağıntılarından xilas etmək üçün Osmanlı yardımından yararlanmaq istəyirdi və anlayırdılar ki, bu dövlətdən başqa imdad axtarmağa başqa yol yoxdur. Türk qoşunlarının komandanı Vehib paşanın 12 aprel tarixli məktubunda "bizim birinci vəzifəmiz budur ki, Qafqaz müsəlmanları bizimlə real əlaqə saxlaya bilsinlər"[16]

[12] *Azərbaycan tarixi, 3 cilddə*, Bakı: EA nəşr, 1964. II c.-702, 30.
[13] «Vozrojdeniya» qazet, 1918, 16 maya.
[14] Taib Sünbül, *Azerbaycan Dosyası*, Ankara: Yayın Evi yok; 1990, 83-84.
[15] Cemil Həsənov, *Azərbaycan beynəlxalq münasibətlər sistemində: 1918-1920-ci illər*, Bakı: Azərnəşr, 1993, 362, 67.
[16] Şahin Eniş, *Trabzon ve Batum konferansları ve antlaşmalar, 1917-1918, Ankara*: Türk tarih kurumu basımevi, 2002, 190-191.

vurğulaması, Osmanlı tərəfinin Azərbaycana yardım etməyə hazır olduğunu sübut edir. Bundan başqa Azərbaycan liderləri Zaqafqaziyanın rifahı uğrunda da siyasi addımlar atırdılar. Azərbaycan nümayəndə heyəti istər Trabzonda, istərsə də Batumda Türkiyəni Zaqafqaziyaya qarşı aqressiv meyillərdən uzaqladırmağa çalışırdı. M.Hacınsiki Ənvər paşa ilə danışıqlarda Batumun Zaqafqaziyada qalması təklifini irəli sürmüşdü. Yəni bu fakt gürcü menşeviklərinin və ümumiyyətlə Seymdəki qeyri-müsəlman partiyaların Müsavat və bitərəflər qrupuna qarşı əsassız ittihamlarını alt üst etmiş olur.

May ayının 11-də Batumda Osmanlı ordusunun Qafqaz cəbhəsi komandanlığı ilə Seymin nümayəndə heyəti arasında sülh danışıqları başladı. Osmanlı nümayəndə heyətinə Xəlil Menteşe rəhbərlik edirdi. Sülh danışıqlarının başlanmasına baxmayaraq, Zaqafqaziya federasiyası tərkibində gərginlik son həddə çatmışdı. Osmanlı dövlətinin diktə edən tərəf kimi konfransda iştirakı Seymdəki qeyri müsəlman partiyaların Azərbaycan siyasi xadimlərinə, əsasən də müsavatçılara qarşı təkəbbürünü artırırdı. Batumda Zaqafqaziyanı təmsil edən nümayəndə heyətinin çoxluğu qeyri-səlis siyasi xəttin yeridilməsinə gətirib çıxarırdı. Ümumiyyətlə, Seymin yaradıldığı gündən etibarən fraksiyaların bir birinə etimadsızlığı hər bir məsələdə özünü biruzə vermişdi. Trabzon konfransı haqqında söz açan türk müəllifi Zaqafqaziya nümayəndə heyətini "ekspedisiya qoşunlarına"[17] bənzətmişdi Bu onu göstərirdi ki, ilk əvvəldən heç bir məsələdə Seym fraksiyalarının bir birinə etibarı yox idi.

Azərbaycan siyasi xadimlərinin mövqeyinin qəbul edilməməsi, Qafqazın müsəlman əhalisinin Osmanlı tərəfinə xilaskar kimi baxmağa vadar edirdi. N.Yusifbəyli Osmanlı oreyintasiyası haqqında danışarkən qeyd edirdi ki, bizim belə gücsüz halımızda xarici köməyə müraciət etməkdən başqa çarəmiz yoxdur. Heyətimizin Batumda Şərqi Zaqafqaziya türkləri adından Osmanlı imperiyasından yardım istəmək vaxtı çatmışdır. Ola bilsin ki, qonşularımızın xoşuna gəlməsin. Başqa çıxış yolumuz yoxdur.[18] N.Yusifbəylinin Osmanlıdan yardım məsələsi bu dövlətin siyasi təsiri ilə idarə edilməsi anlamına gəlmirdi. Belə ki, Gəncə Milli Komitəsi tərəfindən Osmanlı dövləti ilə danışıqlara göndərilən N. Şeyxzamanlıya N. Yusifbəyli xüsusən tapşırmışdı ki, "türklər hərbi qüvvələri ilə bizə kömək etsinlər, ancaq Azərbaycanı ilhaq etmək istəyirlərsə onda gəlməsinlər. Biz öz

[17] F. Kazemzade, *Borba za Zakavkazy, (1917-1921),* Ctokholm: CA-CC Press, 2010, 328, 74.
[18] *Adres kalendar Azerbaydjanskoy Respubliki na 1920 qod*, Pod. Red. Stavrovskoqo- Baku : Tipoqrafiya qazeta Azerbaycan, 1920, 64.

yağımızı qovurub başqa çarə taparıq”[19] Osmanlı diplomatiyası Batum konfransında Brest-Litovski müqaviləsindən əlavə bir sıra ərazilərin tələbini irəli sürdülər. Bu tələblərə Axalsıx, Alxalkəlik, Aleksandropol və Üçmədzin qəzasının bir hissəsi, Qars-Aleksandropol-Culfa dəmir yolu daxil idi.[20] Bu tələblərdən sonra Zaqafqaziya dövlətçilik sisteminin iflasını başandığını söyləsək yalnışlığa yol vermərik.

Əlavə ərazilərin istənilməsi gürcü və erməni siyasi xadimləri tərəfindən əks reaksiya ilə qarşılandı.

Danışıqlarda Osmanlı dövlətinin diqtə edən tərəf kimi iştirakı seymdəki qeyri müsəlman fraksiyaların başqa xarici qüvvələr ilə yaxınlaşmasına gətirib çıxaradı. Batum danışıqlarında Alman diplomatı fon Lossov yaranmış vəziyyəti öz dövlətinin mənafeyi üçün istifadə etmək qərarına gəldi. O ciddi surətdə gürcü nümayəndə heyəti ilə danışıqlara başladı.[21] Onsuz da Almaniya ilə Osmanlı dövlətinin müttəfiqlik münasibətlərində Brest-Litovskidən sülhündən sonra gərginlik yaranmışdı. Hər iki dövlətin mənafeyi Qafqazda toqquşurdu.

Türkiyə ilə münasibətlər Müsəlman fraksiyasının, aprel ayının sonu -may ayında gündəmdə olan ən əsas məsələ idi. Ənvər paşa ilə M.Hacınsikin görüşlərində Azərbaycanın gələcək statusu, Osmanlı tərəfinin yardım təşəbbüslərinə toxunuldu. Ənvər paşa Azərbaycanın müsətqilliyinin elan edilməsini və Osmanlı ilə Avstryiya-Macarstan kimi ittifaq yarada bilməsini gündəmə gətirdi. O qardaşı Nuri paşanın rəhbərliyi ilə 300 hərbçinin Azərbaycana gələcəyini xəbər verdi.[22] Buradan göründüyü kimi, Osmanlı dövləti lideri Zaqafqaziya federasiyasının həyatiliyinə inanmırdı və Qafqaz müsəlmanlarının müstəqilliyi məsələsi üzərində düşünürdü. Lakin bu Azərbaycan siyasi xadimlərinin Seymdən ayrılması istəyinin olmasına dəlalət etmirdi. Çünki Batumda Azərbaycan nümayəndə heyəti Seymin dağlıma təhlüksinin reallaşdığı bir vaxta gürcülərlə birlikdə ittifaqda qalmağı təklif etmişdi.[23] Bu Azərbaycan siyasi xadimlərinin Qafqaz birliyini qorumaq cəhdlərinin mövcudluğunu sərgiləyirdi.

---

[19] Şeyxzamanlı Nağı bəy, *Azərbaycan istiqlal mücadiləsi xatirələri,* Bakı: Azərnəşr, 1997, 176, 57.
[20] Həsənov, *Azərbaycan beynəlxalq münasibətlər sistemində*, 362, 62.
[21] Sünbül, *Azerbaycan Dosyası*, 33.
[22] Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsi Siyasi Sənədlər Arxivi, f. 268, 1, iş 1, v.34-35.
[23] Dokumentı i materialı po vnenoy politike Zakavkazya i qruziy, Tiflis: Tipoqrafiya Pravitelstvo Qruzinskoy Respubliki 1919, 512, 158.

Batum danışıqlarında baş verən ziddiyyətlərdə Azərbaycan siyasi xadimlərinin Zaqafqaziya dövlətçiliyinə göstərdikləri sadiq münasibəti onların vəziyyətin gedişinə təmkinlə yanaşdıqlarından görmək olar. Belə ki, may ayının ortalarından ziddiyyətlərin daha qabarıq şəkil almasına baxmayaraq, Batumdakı gürcü siyasi nümayəndələrindən fərqli olaraq, Azərbaycan liderləri xaricdən dəstək almaqla federasiyanın dağılması istiqamətində konkret siyasi xətt yürütmürdülər. Gürcü nümayəndələri isə alman diplomatları ilə müntəzəm görüşlər keçirərək müsətqil Gürcüstan fikirində qəti dayanmışdılar. Onu da qeyd etməliyik ki, Qazfqazda ən çox xarici yardıma azərbaycanlıların ehtiyacı var idi. Çünki Azərbaycanın əksər ərazisi bolşevik-daşnak qüvvələrinin nəzarətində idi. Buna baxmayaraq Azərbaycan siyasi xadimləri hər vasitə ilə Zaqafqaziya dövlətçiliyini qorumaq təşəbbüsünü göstərirdilər. Azərbaycan siyasi xadimlərinin Osmanlı dövlətindən yardım istəmək kimi təsəbbüsünü də Seymin dağıdılması istiqamətində siyasi xətt kimi göstərmək yalnışdır. Çünki türk yardımından istifadə yalnız bolşevik-daşnak qırğınlarının qarşısının alınması üçün istənilirdi.

**Zaqafqaziya dövlətçiliyində ziddiyyətlərin kəskinləməsi. Müstqəil Azərbaycan dövlətinin yaradılması**

Cənubi Qafqazda siyasi maraq toqquşmaları, may ayının ortalarında Almaniyanın ciddi siyasi xətt yürütməsi ilə daha da şiddətləndi. Alman polkovniki Kress fon Kressenşteynin Tiflisə gəlişindən sonra gürcülərin Almaniya meyilli siyasi xətti tam qabarıq surətdə özünü biruzə verdi və gürcü siyasi xadimlərin böyük əksəriyyəti bunu gürcü xalqının yeganə xilas yolu kimi gördülər.[24] Türk himayəsindən imtina edərək, alman orientasiyasını seçən gürcü və erməni siyasi xadimlərinin məqsədi özlərinin dedikləri anti-imperiaizm siyasi xətti deyil, sadəcə olaraq anti-müsəlman xarakteri daşıyırdı.

May ayının 22-dən etibarən gürcü siyasi xadimlərinin böyük əksəriyyəti Gürcüstanın müstəqilliyini Osmanlı dövlətinin irəli sürdüyü tələblərə qarşı ən yaxşı vasitə olacağını qərara aldılar. Azərbaycan siyasi xadimlərinin səylərinə baxmayaraq gürcülərin Seymdən çıxmaq istəyi, Azərbaycanın da müstəqilliyini elan etməsindən başqa çıxış yolu qoymurdu. Mayın 25-də müsəlman fraksiyasının X.Məlikaslanovun sədrliyi ilə keçirilən səhər iclasında Gürcüstanın istiqlaliyyəti məsələsi müzakirə edildi. İclasda əksəriyyət qərara gəldi

[24] Həsənov, *Azərbaycan beynəlxalq münasibətlər sistemində,* 362, 65.

ki, əgər Gürcüstan müstəqilliyini elan edərsə Azərbaycan da öz istiqlaliyyətini elan etsin.[25] Həmin qərara baxılarsa müşahidə etmək olur ki, Azərbaycan siyasi xadimləri federasiyanın saxlanılmasında maraqlı idilər. Azərbaycanın müstəqilliyi Zaqafqaziya birliyi məsələsindən ön planda deyildi və Azərbaycan aydınları Qafqaz birliyini qorunub saxlanlımasına müəyyən dərəcədə səy göstərirdilər. Gürcülərin ən çox Azərbaycan siyasi xadimlərini ittiham etdikləri məsələ Osmanlı dövlətinin dəstəklənməsi və bu dövlətin Qafqaza təyziqlərində müsəlman amilinin qabardlıması idi. Lakin reallığa baxdıqda görərik ki, Azərbaycan siyasi xadimləri qeyri-müsəlman fraksiyaların günahı ucbatından Osmanlı orientasiyasını seçmişdilər. Yəni daşnakların etnik təmizləmə siyasəti və bolşeviklərlə əməkdaşlığı, menşeviklərin ikili siyasət yeritməsi Azərbaycan aydınları üçün başqa çıxış yolu qoymurdu. X.Xasməmmədov müsəlman fraksiyasının 25 may iclasında doğru olaraq gürcü menşeviklərinin ikibaşlı siyasət yeritməkdə ittiham edirdi.[26] 1918-ci il mayın 26-da Seymin sonuncu iclası keçirildi. İlk olaraq Gürcüstanın istiqlaliyyətinin elan edilməsi məsələsi ortaya qoyuldu. İ.Sereteli Seymin dağılmasının günahını Azərbaycan siyasi xadimlərinin üzərinə yıxdı. O Azərbaycan siyasi xadimlərini Cənubi Qafqazı Türkiyəyə birləşdirmək cəhdlərində ittiham etdi. Lakin reallığa baxılarsa gürcü siyasi xadimlərinin yürütdüyü alman meyilli siyasi xətt, Cənubi Qafqaz müsəlmanlarının Osmanlı orientasiyasını üstələyirdi. Gürcüstanın istiqlaliyyətindən dərhal sonra Almaniya ilə müqavilənin bağlanması və bu dövlətin tam himayəsinə keçməsi əyani sübutdur.[27]

May ayının 27 də Seymin müsəlman fraksiyasının fövqəladə iclası keçirildi. İclasda Müvəqqəti Milli Şuranın yaradılması qərara alındı. M.Ə.Rəsulzadə Milli Şuranın sədri seçildi. M.Seyidov və H.Ağayev onun müavinləri təyin edildilər. M.Ə.Rəsulzadənin namizədliyini İttihad fraksiyasından başqa bütün partiyaların nümayəndələri dəstəklədi.[28] F.X.Xoyski yekdilliklə Şuranın İcraiyyə Komitəsinin sədri seçildi. Ertəsi gün, mayın 28-də Milli şuranın ilk iclasında gündəlikdə Azərbaycanın müstəqilliyinin elan edilməsi məsələsi ortaya qoyuldu. Bəzi siyasi xadimlər müstəqil Azərbaycanın yardılması məsələsinə tərəddüdlə yanaşırdılar. Məsələn, F.X.Xoyski müstəqilliyin elan edilməsi üçün lazimi

[25] ARPİİSSA, f. 268. 1, iş 1, v. 43.
[26] Zaqafqaziya Seyminin Müsəlman Fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokollar, 1918-ci *il*/ Müqəddimənin müəllifi və məs. red. Paşayev A. Ə, Bakı:Adiloğlu, 2006.-216 .1
[27] Dokumentı i materialı po vnenoy politike Zakavkazya i qruziy, Tiflis: Tipoqrafiya Pravitelstvo Qruzinskoy Respubliki 1919, 512 .332-336.
[28] Dokumentı i materialı po vnenoy politike Zakavkazya i qruziy, 512 .332-336.

zaman və şəraitin yetişmədiyini qeyd edirdi.[29] Onun fikrincə, reallıqla yanaşılarsa, həmin dövrdə müstəqil Azərbaycanın yaşaması sual altında ola bilərdi. Çünki həm beynəlxalq siyasi-iqtisadi, həm də daxili vəziyyət ziddiyyətli səciyyə daşıyırdı. Milli Şuranın üzvü Ə.Pepinov xatirələrində həmin dövrü, tam hakimiyyətsiliyin, özbaşnalığın olduğu, inzibati idarə sisteminin mövcud olmadığı dövr kimi təsvir edirdi.[30] Hətta əsas himayədar hesab edilən Osmanlı dövlətinin hərbi, siyasi, iqtisadi durumu heç də urək açan vəziyyətdə deyildi. Lakin Seymin dağılması nəticəsində istiqlaliyyətin elan edilməsindən başqa yol mövcud deyildi. Buna görə də iclasda 24 nəfər lehinə səs verməklə Azərbaycan Xalq Cumhuriyyətinin yaradılması elan edildi. Milli şura üzvlərindən 2 nəfər - S.Qənizadə və C.Axundov bitərəf qaldılar.[31] F.X.Xoyski Nazirlər kabinetinin sədri və Daxili işlər naziri təyin edildi.

---

[29] Həsənli, *Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasət, 1918-1920,* Bakı: GARISMA, MMC, 2009, 527, 74.

[30] İbrahimova Almaz, *Azərbaycanda ictimai-siyasi qüvvələrin mübarizəsi, 1917-1918-ci illər,* Baki: yayın evi yok, 2010, 208, 159.

[31] *Azərbaycan tarixi, 7 cilddə, V cild,* (1900 – 27 fevral – 1920), Bakı: Elm, 2001, 672, 343.

**Nəticə**

Fevral inqilabından sonra Azərbaycan milli hərəkatında başlanan yeni mərhələdə, Müsavat partiyası və bitərəflər qrupu ətrafında toplaşan siyasi xadimlərin müstəqilliyə doğru apardıqları siyasi mübarizənin və mövcud vəziyyətin düzgün qiymətləndirmələrinin nəticəsi olaraq, Azərbaycan milli dövlətinin əsası qoyuldu.

Azərbaycan Xalq Cumhuriyyətinin yaradılması 1917-ci il Fevral inqliabından başlayaraq milli liderlərin apradığı siyasi mücadilənin məntiqi yekunu oldu. Doğrudur, Azərbaycan siyasi xadimləri vahid konsepsiya olaraq əvvəlcədən bu ideyalar ətrafında hərəkət etməmişdilər. Onların siyasi istiqamətlərinə zamanın hökmü də yetərincə təsirini göstərmişdi.

Lakin desentralist istiqamətli siyasi xadimlərin həmin mücadilədə zamanın reallıqları ilə hesablaşmaları, xarici və daxili sıxıntılardan ruhdan düşməmələri, onların dövlətçilik məktəbini yeterərincə mənimsəmələrini göstərən faktordur. Nəzərə almaq lazımdır ki, XX əsrin əvvəllərində siyasi təşkilatlanma cəhətdən Qafqazın müsəlman-türk əhalisi erməni və gürcülərdən geri qalırdı. Fevral inqilabından sonra bu gerilik hiss olunmurdu. Cünki Azərbaycan siyasi elitasının səyləri ilə güclü təşklatlanma işlərinin aparıması nəticəsində siyasi partiya və təşkilatlar milli hərəkatda yetrincə püxtələşmiş oldular. M.Ə.Rəsulzadə, F.X.Xoyski, M.H.Hacınski, Ş.Rüstəmbəyli, Ə.M.Topçubaşov kimi siyasi aydınların mübarizəsi nəticəsində yaradılan dövlət isə müsəlman şərqində ilk demokratik cumhuriyyət idi.

## Ədəbiyyat siyahısı

Azərbaycan Respublikasının Dövlət Arxivi (ARDA), f. 894.

ARDA, f. 970.

Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsi Siyasi Sənədlər Arxivi, f. 268.

Azərbaycan Cümhuriyyəti (1918-1920), Bakı: Elm, 1998.

Azərbaycan tarixi, 7 cilddə, V cild, (1900 – 27 fevral – 1920). Bakı: Elm, 2001.

Azərbaycan tarixi, 3 cilddə. Bakı: EA nəşr., II cild.-702 . 1964.

Zaqafqaziya Seyminin Müsəlman Fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokollar, 1918-ci il/ Müqəddimənin müəllifi və məs. red. Paşayev A. Ə.-Bakı:Adiloğlu, 2006.

Adres-kalendar Azerbaycdjanskoy Respubliki na 1920 qod. Pod. Red . Stavrovskoqo. Baky: Tipoqrafiya qazetı Azerbaydjan – 1920. 64 .

Vozrojdeniya qazeta,1918, 16 maya.

Dokumentı i materialı po vneşney politike Zakavkazya i Qruziyy, Tiflis: Tipoqrafiya Pravitelstvo Qruzinskoy Respubliki 1919.

Zakavkazskiy Seym. Stenoqrafiçeskiy otçe, Ssesiya pervya, Tiflis: 1918.

21-ci yüzyılda Eğitim ve Toplum, c. 2, sayısı 5, Ankara: yaz 2013.

GÖYÜŞOV, A., *Azərbaycanda ittihadçılıq*, Bakı: Bakı Universiteti, 1997.

HƏSƏNLI, *C., Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti, 1918-1920*, Bakı: GARISMA, MMC, 2009.

HƏSƏNOV, C., *Azərbaycan beynəlxalq münasibətlər sistemində: 1918-1920-ci illər*, Bakı: Azərnəşr, 1993.

İBRAHİMOVA, A., *Azərbaycanda ictimai-siyasi qüvvələrin mübarizəs, 1917-1918-ci illər,* BAKI: Yayın evi yok, 2010.

RƏSLZADƏ, M.Ə., *Azərbaycan Cümhuriyyəti*, Bakı: Elm, 1990.

SÜNBÜL, T., *Azerbaycan Dosyası*, Ankara: Yayın evi yok, 1990.

ŞEYXZAMANLI, N., *Azərbaycan istiqlal mücadiləsi xatirələri*, Bakı: Azərnəşr, 1997.

QASANLI, Dj., *Russkaya Revolyutsiya i Azerbayydjan: trudnıy put k nezavisimosti. 1917-1920- M*. : Flinta, 2011.

KAZEMZADE, F., *Borba za Zakavkazye (1917-1921)*, M.:CA-CCPress, 2010.

KAÇAZNNİ, Ov., *Daşnakstyun bolşe neçeqo delat*, Baku: Em, 1990.

MASABERİDZE M., *Razrabotka konstitusiyy Zakavkazkoqo Seyma i Nasionalnıy Sovet Qruziyy*. *Kavkaz i qlobalizasiya*. Tom 2, vıpusk 2. 2008.

ŞAHİN, E., *Trabzon ve Batum konferansları ve antlaşmaları, 1917-191*, Ankara: Türk tarih kurumu basımevi, 2002.